

BAKI FOND BİRJASI

# Bakı Fond Birjası

## Yanvar-Dekabr ayları üzrə Hesabat

DEKABR•2021

# Rüblük Statistika

Bakı Fond Birjasında 01.01.2021-31.12.2021 tarixləri ərzində qiymətli kağızlar üzrə keçirilən əməliyyatların ümumi həcmi 15,300,752,386 manat təşkil etmişdir.

## Aylar üzrə ümumi ticarət həcmi

*(manatla)*




***2021-ci il yanvar-dekabr ayları üzrə bazar həcmləri müvafiq olaraq aşağıdakı kimi olmuşdur (milyon manatla):***

- ***Dövlət Qiymətli Kağızları - 7,287***
- ***Korporativ Qiymətli Kağızları - 816***
- ***Repo Əməliyyatları - 7,196***



# Bazarlar üzrə ticarət göstəriciləri

- 15,3 milyard manat həcmində olan ümumi ticarət dövriyyəsinin 48%-ni dövlət qiymətli kağızları, 47%-ni Repo əməliyyatları, korporativ qiymətli kağızlar isə 5%-ni əhatə edir.

- Korporativ qiymətli kağızlar bazarının 5%-i səhmlərin, 95%-i isə istiqrazların payına düşür.

- Korporativ qiymətli kağızlar bazarının 80%-ni ilkin bazar əməliyyatları qalan 20%-ni isə təkrar bazar əməliyyatları təşkil edir.

İlin əvvəlinə nəzərən bazar kapitalizasiyası üzrə artım

**+12%**

4.36 mlrd manat kapitalizasiya







*K.Q.K- Korporativ qiymətli kağızlar
*D.Q.K- Dövlət Qiymətli Kağızları
*T.B- Təkrar bazar
*İ.B- İlkin bazar

# Birjanın ticarət dövriyyəsi üzrə trend

**+19%**

Ümumi Ticarət Həcmi

Korporativ qiymətli kağızların(ipoteka istiqrazları istisna) ilkin bazar əməliyyatlarında yüksək aktivlik müşahidə olunmuşdur

2021-ci il ərzində ötən ilə nəzərən Ümumi ticarət dövriyyəsində 19% artım müşahidə edilmişdir

**+241%**

Korporativ qiymətli kağızların(iopteka istiqrazları istisna ilkin bazar əməliyyatları

**+235%**

Repo əməliyyatları

Ötən ilin dörd rübünə nəzərən repo əməliyyatları üzrə ticarət dövriyyəsində 235% artım qeydə alınmışdır.

# BFB-nin ümumi ticarət dövriyyəsi

## 2021-ci il yanvar- dekabr

| Bazarlar / Əməliyyatlar | 01.01.2021 - 31.12.2021 | | 01.01.2021 - 31.12.2021 | |
|---|---|---|---|---|
| | Əqdlərin həcmi (manatla) | Əqdlərin sayı | Əqdlərin orta günlük** həcmi (manatla) | Əqdlərin orta günlük sayı |
| **1. Dövlət qiymətli kağızları** | **7,287,806,403** | **2,206** | **30,239,861** | **9.15** |
| **1.1. İlkin bazar** | **6,188,550,117** | **1,425** | **25,678,631** | **5.91** |
| Dövlət istiqrazları (AR Maliyyə Nazirliyi) | 1,497,325,136 | 543 | 6,212,967 | 2.25 |
| ARMB* qiymətli kağızları | 4,691,224,980 | 882 | 19,465,664 | 3.66 |
| **1.2. Təkrar bazar** | **1,099,256,286** | **781** | **4,561,229** | **3.24** |
| Dövlət istiqrazları | 955,373,114 | 753 | 3,964,204 | 3.12 |
| ARMB qiymətli kağızları | 143,883,172 | 28 | 597,026 | 0.12 |
| **2. Korporativ qiymətli kağızlar** | **816,610,641** | **5,338** | **3,388,426** | **22.15** |
| **2.1. İlkin bazar** | **656,577,017** | **1,081** | **2,724,386** | **4.49** |
| 2.1.1. Səhmlər | 30,070,002 | 84 | 124,772 | 0.35 |
| 2.1.2. İstiqrazlar | 626,507,016 | 997 | 2,599,614 | 4.14 |
| - İpoteka istiqrazları | 280,043,332 | 14 | 1,162,006 | 0.06 |
| - Digər istiqrazlar | 346,463,684 | 983 | 1,437,609 | 4.08 |
| **2.2. Təkrar bazar** | **160,033,623** | **4,257** | **664,040** | **17.66** |
| 2.2.1. Səhmlər | 13,936,094 | 3,822 | 57,826 | 15.86 |
| 2.2.2. İstiqrazlar | 146,097,530 | 435 | 606,214 | 1.80 |
| - İpoteka istiqrazları | 62,909,939 | 3 | 261,037 | 0.01 |
| - Digər istiqrazlar | 83,187,591 | 432 | 345,177 | 1.79 |
| **3. Repo əməliyyatları** | **7,196,335,343** | **4,284** | **29,860,313** | **17.78** |
| Dövlət istiqrazları üzrə | 6,834,180,324 | 4,181 | 28,357,595 | 17.35 |
| ARMB qiymətli kağızları üzrə | 358,522,405 | 90 | 1,487,645 | 0.37 |
| Korporativ qiymətli kağızlar üzrə | 3,632,613 | 13 | 15,073 | 0.05 |
| **Cəmi (1+2+3)** | **15,300,752,386** | **11,828** | **63,488,599** | **49.08** |
| - o cümlədən: ilkin bazar | **6,845,127,134** | **2,506** | **28,403,017** | **10.40** |
| - o cümlədən: təkrar bazar | **1,259,289,909** | **5,038** | **5,225,269** | **20.90** |
| - o cümlədən: repo əməliyyatları | **7,196,335,343** | **4,284** | **29,860,313** | **17.78** |



# MÜHÜM HADİSƏLƏR

### Korporativ qiymətli kağızların(ipoteka istiqrazları istisna) ilkin bazar əməliyyatlarında yüksək aktivlik

Ümumilikdə 33 olmaqla 18 kütləvi və 15 qapalı Korporativ qiymətli kağız buraxılışı baş tutmuşdur.
2021-ci il ərzində Korporativ qiymətli kağızların(ipoteka istiqrazları istisna) ilkin bazar əməliyyatlarında ötən ilə nəzərən 241% artım müşahidə olunmuşdur.

### Listinq Məsləhət Proqramı (LMP) çərçivəsində yeni partnyorlar

- Berc Group şirkəti Bakı Fond Birjasında partnyor olaraq Listinq Məsləhət Proqramına qoşulmuşdur
- Azərbaycan Dövlət Aqrar Universiteti Bakı Fond Birjasında partnyor olaraq Listinq Məsləhət Proqramına qoşulmuşdur

### Repo əməliyyatları üzrə yüksək aktivlik

Ötən ilə nəzərən repo əməliyyatları üzrə ticarət dövriyyəsində 235% artım qeydə alınmışdır. Bu maliyyə aləti üzrə əməliyyat həcmi 2021-ci il ərzində 7,2 milyard manat təşkil etmişdir.

### Beynəlxalq Əlaqələr və ictimai münasibətlər

- Bakı Fond Birjası 6-8 oktyabr 2021-ci il tarixlərində Maliyyə Savadlılığına həsr edilmişaçılış zəngi “Ring the Bell for Financial Literacy” tədbiri keçirilmişdir

- 21 oktyabr 2021-ci il tarixində Bakı Fond Birjası “Baku Expo Center”-də təşkil olunmuş 1-ci Azərbaycan Beynəlxalq “Qarabağın Bərpa, Yenidənqurma və İnkişafı - Rebuild Karabakh” sərgisində iştirak etmişdir.

- 26 oktyabr 2021-ci il tarixində Bakı Fond Birjası onlayn keçirilən “SUKUK as alternative financing tool in Azerbaijan” tədbirində iştirak etmişdir.

- Bakı Fond Birjasının idarə heyətinin rəhbəri Eldar Abdullayev 24-27 noyabr 2021-ci il tarixlərində Özbəkistanın Daşkənd şəhərində Müstəqil Dövlətlər Birliyinin Beynəlxalq Birjalar Assosiyasına üzv olan dövlət birjalarının iştirakı ilə illik görüşdə, eləcə də II Beynəlxalq Maliyyə-Bank Forumunun plenar iclasında iştirak etmişdir.

### Listinqlə bağlı yeniliklər və fond birjasında listinqin üstünlükləri” mövzusunda videokonfrans və tədbirlər

- 15 oktyabr 2021-ci il tarixində Bakı Fond Birjası tərəfindən kiçik və orta sahibkarlıqla məşğul olan şirkətlər üçün “Qiymətli kağızların buraxılışı və Fond Birjasında listinq” mövzularında onlayn sertifikatlı təlim keçirilmişdir.

- 11 noyabr 2021-ci il tarixində Azərbaycan Respublikasının Mərkəzi Bankı, Azərbaycan Sahibkarlar Konfederasiyası (ASK) və Bakı Fond Birjası tərəfindən yerli şirkətlər üçün “Qiymətli kağızların buraxılışı və Fond Birjasında listinq” mövzularında onlayn təlim keçirilmişdir.

- 12 noyabr 2021-ci il tarixində Azərbaycan Respublikasının Mərkəzi Bankı, Bakı Fond Birjası, ABB İnvest investisiya şirkəti tərəfindən Azərbaycan Mikromaliyyə Assosiasiyasına (AMFA-ya) üzv olan Bank Olmayan Kredit Təşkilatları (BOKT-lar) üçün onlayn təlim keçirilmişdir.

- 12 noyabr 2021-ci il tarixində sayca dördüncü olan Birja Üzvləri ilə Görüş keçirilmişdir.

- 20 oktyabr 2021-ci il tarixində Azərbaycan Respublikasının Mərkəzi Bankı, Bakı Fond Birjası, Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi və investisiya şirkətlərinin təşkilatçılığı ilə Xaçmaz rayonunda yerləşən KOB İnkişaf Mərkəzində "İnvestisiya səyahəti" təşkil olunmuşdur.

- 3 dekabr 2021-ci il tarixində Azərbaycan Respublikasının Mərkəzi Bankı, Bakı Fond Birjası, Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi və Bakı Fond Birjasının üzvləri olan investisiya şirkətlərinin iştirakı ilə Lənkəran şəhərində yerləşən Heydər Əliyev Mərkəzində "İnvestisiya səyahəti" tədbiri təşkil olunmuşdur.

# MÜHÜM HADİSƏLƏR



**Bakı Fond Birjasında listinqə alınaraq ticarətin həyata keçirilməsi**

- 26 oktyabr 2021-ci il tarixində Bakı Fond Birjasında “Unibank Kommersiya Bankı” ASC-nin tədavül müddəti 6 (altı) təqvim ili olan AZ2012002021 dövlət qeydiyyat nömrəli, 15.000.000,00 dollar həcmində, faizli, təmin edilməmiş sənədsiz, adlı istiqrazlarının yerləşdirilməsi üzrə hərrac yekunlaşmışdır.
- 28 oktyabr 2021-ci il tarixində Bakı Fond Birjasında Bravo Supermarketlər şəbəkəsinin də daxil olduğu "Azərbaycan Supermarket" MMC-nin tədavül müddəti 3 (üç) təqvim ili olan AZ2001023525 dövlət qeydiyyat nömrəli, 10,000,000.00 manat həcmində, faizli, təmin edilməmiş sənədsiz, adlı istiqrazlarının yerləşdirilməsi üzrə hərrac yekunlaşmışdır.
- 19 noyabr 2021-ci il tarixində Bakı Fond Birjasında “Silk Vey Vest Aviaşirkəti” MMC-nin tədavül müddəti 3 (üç) təqvim ili olan AZ2001023517 dövlət qeydiyyat nömrəli, 10,000,000.00 ABŞ dolları həcmində, faizli, təmin edilməmiş sənədsiz, adlı istiqrazlarının yerləşdirilməsi üzrə hərrac yekunlaşmışdır.
- 23 noyabr 2021-ci il tarixində Bakı Fond Birjasında "Optimal Elektronika" MMC-nin tədavül müddəti 18 (on səkkiz) təqvim ayı olan AZ2001023590 dövlət qeydiyyat nömrəli, 2,500,000.00 AZN həcmində, faizli, təmin edilməmiş sənədsiz, adlı istiqrazlarının yerləşdirilməsi üzrə hərrac yekunlaşmışdır.
- 1 noyabr 2021-ci il tarixində Bakı Fond Birjasında Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) tədavül müddəti 5 (beş) təqvim ili olan AZ2002019894 dövlət qeydiyyat nömrəli, 100,000,000.00 ABŞ dolları həcmində, faizli, təmin edilməmiş sənədsiz, adlı istiqrazlarının yerləşdirilməsi üzrə hərrac yekunlaşmışdır.
- 2021-ci ilin 4 və 5 noyabr tarixlərində Bakı Fond Birjasında Zəyəm Texnologiyalar Parkının 18,000,000.00 (on səkkiz milyon) manat dəyərində olan səhmlərinin yerləşdirilməsi üzrə hərrac keçirilmişdir.
- 2 dekabr 2021-ci il tarixində Bakı Fond Birjasında "Ekspress-C" ASC-nin tədavül müddəti 2 (iki) təqvimili olan AZ2001023608 dövlət qeydiyyat nömrəli, 2,000,000.00 AZN həcmində, faizli, təmin edilməmiş sənədsiz, adlı istiqrazlarının yerləşdirilməsi üzrəhərrac yekunlaşmışdır.
- 9 dekabr 2021-ci il tarixində "Optimal Elektronika" MMC-nin tədavül müddəti 18 təqvim ayıolan 2,500,000.00 manat həcmində, faizli, təminedilməmiş sənədsiz, adlı istiqrazlarının yerləşdirilməsi üzrəhərrac keçirilmişdir.
- 16 dekabr 2021-ci il tarixində "Bank Respublika" ASC-nin tədavül müddəti 2 təqvim iliolan 10,000,000.00 manat həcmində, faizli, təmin edilməmiş sənədsiz, adlı istiqrazlarının yerləşdirilməsi üzrəhərrac keçirilmişdir.
- 21 dekabr, 2021-ci il tarixində “AzFinance İnvestisiya Şirkəti” QSC-nin AZ2002019712 1,000,000.00 manat həcmində, diskontlu, təmin edilməmiş sənədsiz, adlıistiqrazlarının yerləşdirilməsi üzrəhərrac keçirilmişdir.
- 22 dekabr 2021-ci il tarixində "Ekspress-C" ASC-nin tədavül müddəti 2 təqvim iliolan 1,000,000.00 manat həcmində, faizli, təmin edilməmiş sənədsiz, adlı istiqrazlarının yerləşdirilməsi üzrəhərrac keçirilmişdir.
- 27 dekabr 2021-ci il tarixində “Silk Vey Vest Aviaşirkəti” MMC-nin tədavül müddəti 3 təqvim iliolan 10,000,000.00 ABŞ dolları həcmində, faizli, təminedilməmiş sənədsiz, adlı istiqrazlarının yerləşdirilməsi üzrəhərrac keçirilmişdir.
- 27 dekabr 2021-ci il tarixində "FİNCA AZƏRBAYCAN" QBKT MMC-nin tədavül müddəti 2 təqvim iliolan 3,000,000.00 manat həcmində, faizli, təmin edilməmiş sənədsiz, adlı istiqrazlarının yerləşdirilməsi üzrəhərrac keçirilmişdir.
- 28 dekabr 2021-ci il tarixində Bravo Supermarketlər şəbəkəsinin də daxilolduğu "Azərbaycan Supermarket" MMC-nin tədavül müddəti 3 təqvim iliolan 10,000,000.00 manat həcmində, faizli, təmin edilməmiş sənədsiz, adlı istiqrazlarının yerləşdirilməsi üzrəhərrac keçirilmişdir.

# Birja üzvlərinin ticarət göstəriciləri

| Qiymətli Kağızın növünə görə | "PAŞA Kapital İnvestisiya Şirkəti" QSC | "Unicapital İnvestisiya Şirkəti" ASC | BTB Kapital İnvestisiya Şirkəti ASC | "AzFinance İnvestisiya Şirkəti" QSC | "CPM-İnvest İnvestisiya Şirkəti QSC | "ABB İnvest İnvestisiya Şirkəti QSC | "Xalq Kapital İnvestisiya Şirkəti" QSC | "PSG Kapital İnvestisiya Şirkəti" QSC | "İnvest-Az İnvestisiya Şirkəti" QSC | MFX Trading İnvestisiya Şirkəti |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| ARMB qiymətli kağızları | 2,288,269,641 | 380,956,460 | 407,349,164 | 558,191,166 | 183,035,578 | 445,432,857 | 480,242,979 | 107,951,585 | 127,561,893 | - |
| Dövlət İstiqrazları | 2,647,404,903 | 396,203,477 | 417,675,619 | 493,025,297 | 566,542,031 | 273,051,037 | 21,811,776 | 48,197,317 | 24,990,787 | 16,494,258 |
| Korporativ İstiqrazlar | 534,413,809 | 63,657,170 | 217,199,765 | 76,964,338 | 9,072,740 | 8,950,642 | 54,826,290 | 296,777,204 | 283,278,791 | 68,340 |
| Səhm | 41,842,446 | 13,061,354 | 90,828 | 5,048,515 | 302,387 | 28,839 | 1,012,431 | 526,102 | 15,455,932 | 10,643,357 |
| Repo | 7,954,268,827 | 3,809,145,848 | 1,170,996,494 | 513,635,865 | 553,824,243 | 341,288,435 | - | 19,888,767 | - | 29,622,207 |
| Cəmi əməliyyatların həcmi | **13,466,199,626** | **4,663,024,309** | **2,213,311,870** | **1,646,865,182** | **1,312,776,980** | **1,068,751,809** | **557,893,476** | **473,340,974** | **451,287,403** | **56,828,162** |
| Cəmi əməliyyatların sayı | **5750** | **2791** | **1148** | **3682** | **1021** | **489** | **1123** | **2800** | **3077** | **893** |



# Bazarlar üzrə Top 3 birja üzvləri

## Ümumi əməliyyatların həcminə görə




## Səhm bazarı üzrə




## Korporativ istiqraz bazarı üzrə




## Repo əməliyyatları üzrə



# Bazarlar üzrə ticarət həcmi trendləri
*(manatla)*






# Repo əməliyyatları üzrə göstəricilər

2021-ci ilin dörd rübü üzrə repo əməliyyatları BFB-nin ümumi ticarət dövriyyəsinin 47%-ə qədər olan hissəsini əhatə edir.

Repo əməliyyatlarının qiymətli kağızlar üzrə bölgüsü sağdakı qrafikdəki kimidir.




